

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 203 (21.613)

27 oktyabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Cənubi Afrika Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pule İsaak Malefanenin etimadnaməsini qəbul edib.

Pule İsaak Malefane etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin iqtisadiyyat və ticarət sahələrində də əməkdaşlığı genişləndirməsinin zəruriliyini qeyd edib.

Artıq bir neçə ildir, Azərbaycanın Cənubi Afrika Respublikasında səfirliyinin fəaliyyət göstərdiyini bildirən Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi və biznes nümayəndələri üçün imkanların yaradılması baxımından səfirliklərin rolunu vurğulayıb.

Səfir Pule İsaak Malefane ölkələrimiz arasında mövcud əlaqələrin gücləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirib.



## Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının XI konfransı keçirilib

***Konfransın katibliyi seçildikdən sonra gündəlikdə duran məsələlər elan olunub.***

Hesabat məruzəsi ilə çıxış edən Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev bildirib ki, təşkilatın X konfransından ötən müddət ərzində rayon partiya təşkilatının sıraları nəzərəçarpacaq dərəcədə genişlənib. X konfransdan keçən müddət ərzində təşkilatın idarə heyətinin 42 iclası keçirilib, bu iclaslarda 84-dən çox məsələ müzakirə edilib. X konfransdan ötən dövrdə Yeni Azərbaycan Partiyası sıralarına 637 nəfər üzv qəbul olunub. Bu gün Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının üzvlərindən 1611 nəfərini gənclər, 2752 nəfərini isə qadınlar təşkil edir.



Bildirilib ki, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının qeydiyyatında duran partiya üzvləri ulu öndər Heydər Əliyevin uzun illər üçün müəyyənləşdirilmiş quruculuq siyasətinin bu bölgədə uğurla həyata keçirilməsində fəallıq göstərirlər. Ümummilli liderimizin “Azərbaycanın incisi” adlandırdığı Ordubad rayonu bu siyasət hesabına gündən-günə çiçəklənir. Rayon mərkəzində, kənd yaşayış məntəqələrində hər il quruculuq işləri görülür. Təhsil, səhiyyə, mədəniyyət, rabitə müəssisələri, müxtəlif dövlət qurumları üçün yeni binalar inşa olunur, müasir standartlara cavab verən yollar salınır, sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılır, emal və istehsal müəssisələri, yeni iş yerləri yaradılır, əhalinin sosial müdafiəsi gücləndirilir. Bu proseslərdə partiya fəalları öndə gedirlər.

Qürbət Rzayev deyib ki, bundan sonra da Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı muxtar respublikamızın və eləcə də Ordubad rayonunun daha da çiçəklənməsi yolunda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində var qüvvəsini əsirgəməyəcəkdir.

Məruzə ətrafında çıxışlar olub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyası təsis olunduqdan sonra Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi, ölkəmizin beynəlxalq aləmdə mövqeyi möhkəmlənib. Siyasi xəttinə sadiqliyi, xalq və dövlət qarşısında xidmətləri, ölkəmizin bir-birini əvəzləyən uğurları partiyanın cəmiyyətdəki mövqeyini daha da artırıb, onun ümumxalq partiyası olduğunu təsdiqləyib.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyasının xalqın ən inamlı partiyası olmasını şərtləndirən digər vacib amil partiya sıralarına Azərbaycanın intellektual gənclərinin axınıdır. Bu baxımdan Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının da fəaliyyəti təqdirolunasıdır. Konfranslararası dövrdə rayon təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun müəyyən etdiyi konkret tapşırıqlar əsasında qurmağa çalışıb. Təşkilatın bundan sonra da əsas hədəfi onun cəmiyyətdəki nüfuzunun qorunması, gələcək dövr üçün üzvlərin qəbulu zamanı tələbkarlığın davam etdirilməsi, ən layiqli və ən əsası Ali Məclis Sədrinin qeyd etdiyi kimi perspektivli insanların, xüsusən də gənclərin irəli çəkilməsi olmalıdır. Ərazi prinsipinə görə yenidən təşkilatlandırılan ilk partiya təşkilatları isə yerlərdə onlara yaradılan şəraitdən maksimum istifadə edərək daha aktiv şəkildə partiya siyasətinin həyata keçirilməsinin təbliğatçısı və təşəbbüskarına çevrələcəklər.

Sonda icra katibi rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Sonra konfransın qətnaməsi oxunaraq qəbul edilib.

Konfransda təşkilati məsələyə baxılıb. 19 nəfərdən ibarət şura, Qürbət Rzayev Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri, 3 nəfərdən ibarət nəzarət-təftiş komissiyası, 9 nəfərdən ibarət Gənclər Birliyi, 9 nəfərdən ibarət Qadınlar Şurası seçilib.

## Naxçıvanda külək və su elektrik stansiyaları tikiləcək



***Enerji təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər əhalinin tələbatını ödəməklə yanaşı, həm də Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın davamlı inkişafını təmin edib. Buna görə də enerji təchizatının yaxşılaşdırılması və müasirləşdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada mövcud elektrik stansiyalarının, yarımstansiya və elektrik verilişi avadanlıqlarının təmiri ilə yanaşı, yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi sahəsində də mühüm işlər görülür.***

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən bildirilib ki, hazırda Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Həmçinin gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyasının və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması hazırlanır. Culfa rayonunda isə gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması üçün ölçmə işləri aparılır.

Məlumat üçün bildirək ki, hazırda muxtar respublikadakı 8 elektrik stansiyasının ümumi gücü 237,4 meqavat təşkil edir. Görülən işlərin nəticəsidir ki, Naxçıvanda alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerji ümumi istehsalın 61,1 faizini təşkil edir.

## Muxtar respublikada yeni müəssisələr fəaliyyətə başlayıb

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması, bu sahəyə dövlətin maliyyə dəstəyinin göstərilməsi, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühitinin formalaşdırılması cari ilin 9 ayı ərzində də yeni istehsal və xidmət sahələrinin, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələrinin yaradılmasına imkan verib.

Bu dövrdə Sahibkarlığa Kömək Fondunun kredit vəsaiti və digər mənbələr hesabına sənaye və kənd təsərrüfatı yönümlü 16 istehsal və 7 xidmət sahəsi olmaqla, ümumilikdə, 23 müəssisənin yaradılması istiqamətində işlər başa çatdırılıb. Yeni yaradılmış müəssisələr, əsasən, mebel, qapı-pəncərə, dəri emalı sahəsinin fəaliyyətinin genişləndirilməsi, çörək (lavaş), unlu-qənnadı məmulatları istehsalı sahələri, eyni zamanda istixana, heyvandarlıq və balıqçılıq təsərrüfatlarını əhatə edir.

Cari ilin ötən dövründə Sahibkarlığa Kömək Fondunun krediti və digər mənbələr hesabına ərzaq, həmçinin qeyri-ərzaq məhsulları və müxtəlif növ xidmət sahələri olmaqla, 12 müxtəlif təyinatlı istehsal, 4 xidmət sahəsi, ümumilikdə, 16 müəssisənin yaradılması istiqamətində işlər davam etdirilib.

Ümumilikdə, 2016-cı ilin 9 ayı ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 17 yeni layihə olmaqla, 19 müxtəlif təyinatlı layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 5.238.700 manat maliyyə dəstəyi göstərilib.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 366 növdə məhsul istehsal olunur. Bu məhsulların 120 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın yerli imkanlar hesabına ödənilməsi təmin edilib.

***Son illər Naxçıvan şəhərində müasir yaşayış binalarının, xidmət sahələrinin istifadəyə verilməsi ilə yanaşı, dövlət qurumlarının səmərəli fəaliyyəti də diqqət mərkəzində saxlanılır, yeni inzibati binalar tikilir. Bütün bu tədbirlər əməkdaşların yaxşı şəraitdə işləməsinə hesablanıb.***

## Dövlət komitəsi üçün inşa olunan binada işlər davam etdirilir



Bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi hazırda Naxçıvan şəhərinin Cəlil Məmmədquluzadə küçəsində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün yeni bina inşa edilir. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilən bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarətdir. Burada inşaat işlərinə ötən ildən başlanılıb. Ötən müddətdə tikilən binanın dam örtüyü vurulub, pəncərələri salınıb, kommunikasiya xətlərinin çəkilişi yekunlaşdırılıb. Hazırda binanın fasadında üzləmə işləri aparılır, daxildə pilləkənlərə daş döşənir.

Adıçəkilən komitə üçün inşa edilən yeni binada hər cür şəraitə malik iş otaqları, qurumun əhatə etdiyi sahələrə aid fondlar, mətbəə, arxiv, server otağı, 10 min ədəd kitab üçün nəzərdə tutulmuş elmi kitabxana, laboratoriya, 108 yerlik iclas zalı yaradılacaq, binanı qış aylarında fasiləsiz istiliklə təmin etmək üçün fərdi qazanxana quraşdırılacaq. Yeni binanın istifadəyə verilməsi burada çalışacaq əməkdaşların iş şəraitinin müasir tələblər əsasında qurulması ilə yanaşı, bu sahədə görülən işlərin keyfiyyətinə də müsbət təsir göstərəcəkdir.

**Xəbərlər şöbəsi**

## Naxçıvan innovativ inkişaf sahəsində liderliyini qoruyub saxlayır



***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və akademiyanın bir qrup əməkdaşı Naxçıvana səfər edib. Səfər çərçivəsində Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında “Azərbaycanın innovativ davamlı inkişaf modeli: səmərəli idarəetmə və beynəlxalq qiymətləndirmə” mövzusunda seminar keçirilib.***

Seminardan sonra akademik Urxan Ələkbərovla həmsöhbət olub, təəssüratlarını öyrəndik. Müsahibimiz bildirdi ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə böyük inkişafın təmin olunması, ilk növbədə, muxtar respublikada dövlət idarəçiliyi sahəsində atılan ardıcıl və qətiyyətli addımların, idarəetmənin düzgün təşkil edilməsinin nəticəsidir. Düzgün idarəetmədə başlıca amil olan varisliyin qorunması burada hər bir sahədə özünü büruzə verir. Muxtar respublikaya hər gəlişinizdə böyük dəyişikliklərin, yeniliklərin şahidi oluruq. Naxçıvan şəhəri ilbəil deyil, günbəgün gözəlləşir, abadlaşır.

Akademik dedi ki, Naxçıvanda bütün sahələrdə innovasiyaların tətbiqi yüksək səviyyədədir. Bu da onu deməyə əsas verir ki, həyata keçirilən bütün layihələr yaxşı nəticə verəcəkdir. Sözsüz ki, innovasiyaların ortaya çıxarılması və inkişafı işə təşəbbüskar yanaşan gənclərin, həmçinin ixtisaslı kadrların olmasından asılıdır. Naxçıvana budəfəki gəlişimiz zamanı da şahidi olduq ki, bütün sahələrdə yüksək intellektə malik gənc kadrlara geniş imkanlar yaradılır, yaradıcı təşəbbüslər dəstəklənir. Məncə, qazanılan uğurların səbəblərindən biri də budur. Burada orta məktəb təhsilindən universitetlərə qədərki prosesdə işə təşəbbüskar, innovativ yanaşma təmin edilib.

“Təhsilin səmərəli nəticələrinin əldə olunması bu sahəyə təşəbbüskar yanaşma ilə mümkün olub. Təşəbbüskar tələbə və müəllimlərə sahib olan, ən müasir texnologiyalarla təchiz edilən muxtar respublikanın ali məktəbləri çox səmərəli iş ortaya qoyaraq, yaxşı nəticələr əldə edirlər”, – deyən akademik Urxan Ələkbərov bildirdi ki, bu gün muxtar respublika qarşıda duran strateji vəzifənin öhdəsindən layiqincə gəlib, qədim diyarda sosial-iqtisadi həyat daha da modernləşdirilib və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılıb, davamlı iqtisadi inkişaf təmin edilib, əhalinin həyat səviyyəsi yüksəldilib. Təbii ki, Naxçıvanda bütün sahələrdə müşahidə olunan müasirləşmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların muxtar respublikanın sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. İnnovativ tərəqqinin əsas və həlledici amillərindən biri də insan potensialıdır. Bu gün qədim diyarda dövlət idarəçiliyi sahəsində gənclərin önəmli yerə sahib olması bir daha sübut edir ki, onların potensialından geniş istifadə olunur, gənclər üçün bütün imkanlar yaradılır. Burada hər bir dövlət qulluqçusunun məhsuldar fəaliyyəti üçün də hər cür şərait mövcuddur, bütün dövlət qurumları müasir metodlar və innovasiyalardan maksimum istifadə prinsipi əsasında işləyir. Naxçıvan haqda təəssüratlarımı bircə cümlə ilə ifadə etməli olsaydım, deyərdim ki, Naxçıvan bu sahədə də regionun lideridir.

**Səbuhi HÜSEYNOV**

## Görkəmli bəstəkar Tofiq Bakıxanov Naxçıvanın bir neçə musiqi məktəbinin kollektivi ilə görüş keçirib

***Xəbər verdiyimiz kimi, oktyabr ayının 24-də görkəmli bəstəkar, Xalq artisti, Prezident təqaüdçüsü, Bakı Musiqi Akademiyasının professoru, “Şöhrət” ordenli, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Tofiq Bakıxanov Naxçıvana səfərə gəlib.***



Oktyabrın 26-da bəstəkar Naxçıvan Musiqi Kollecinin müəllim və tələbə kollektivi ilə görüş keçirib.

Bəstəkar burada tədris olunan ixtisaslarla maraqlanıb, tələbələrin ifalarına qulaq asıb, onların ifaçılıq imkanları ilə tanış olub. İlk olaraq xanəndəlik sinfinə baş çəkən qonaq üçün burada bir neçə xalq mahnısı səsləndirilib. Tar sinfində isə Tofiq Bakıxanovun öz əsərləri olan “Görüş yerimiz” və “Xəzər balladası” baletindən “Neft fəvvarəsinin rəqsi” nömrələri ifa olunub. Kamança sinfində Qəmbər Hüseynlinin “Ay işığında” əsərinin ifasını dinləyən bəstəkar tələbələrə daha irihəcmli əsərlər, məsələn, konsertləri öyrətməyi müəllimlərə tövsiyə edib, özünün “Kamança və simfonik orkestr üçün konsert”ini kollecə hədiyyə edəcəyini bildirib.

Daha sonra kollecin 40-a yaxın tələbəsindən ibarət təşkil edilmiş Xalq Çalğı Alətləri Orkestrinin bir neçə ifasına qulaq asan bəstəkar orkestrdə bəzi alətlərin çatışmazlığını, lakin buna baxmayaraq, ifanın qənaətbəxş olduğunu bildirib, gələcəkdə ifa etmək istədikləri, lakin tapa bilmədikləri əsərlərin not nümunələrini onlara göndərəcəyinə söz verib.

Görkəmli bəstəkar Tofiq Bakıxanovun Naxçıvan Musiqi Kollecinin müəllim və tələbə heyəti ilə görüşünü kollecin direktoru Həsən Seyidov açıb.

Kollecin müəllimi Samirə Hüseynova çıxışında bildirib ki, yaradıcılığı maraqlı nüanslarla zəngin olan və əsərləri əbədiyaşarlıq qazanan bir çox sənətkarlar var. Tofiq Bakıxanov da onlardan biridir. O, Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olan Üzeyir Hacıbəyov tərəfindən əsası qoyulmuş milli bəstəkarlıq məktəbinin nümayəndəsidir. Görkəmli sənətkarın əsərləri milli musiqi mədəniyyəti xəzinəmizə dəyərli töhfə olmaqla yanaşı, gələcəkdə də Azərbaycanda musiqi mədəniyyətinin inkişafında mühüm rol oynayacaq təqdirəlayiq sənət nümunələridir. Vurğulanıb ki, istedadlı bəstəkar Tofiq Bakıxanovun əsərləri, ilk növbədə, özünəməxsus musiqi dili ilə diqqəti cəlb edir. Müxtəlif insan xarakterləri, onların dünyaya fərqli baxışları, fərdi düşüncə tərzləri Tofiq Bakıxanov tərəfindən o qədər emosional canlandırılır ki, dinləyici bu əsərlərə valeh olmaya bilmir.

Tədbirin sonunda çıxış edən Tofiq Bakıxanov kollecin müəllim və tələbə heyətinə tövsiyələrini verib və Naxçıvanın ilk professional bəstəkarı olan Məmməd Nəsirbəylinin yaradıcılığı haqqında bəzi məlumatları onlara çatdırıb.

Günün ikinci yarısında Tofiq Bakıxanov Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində olub. Məktəbin müəllim və şagirdləri konsert proqramı ilə çıxış edib. Konsertin rəsmi hissəsində aparıcı tərəfindən bəstəkarın həyat və yaradıcılığı haqqında məlumat verilib. Məktəbin müəllim və şagirdlərinin ifasında yerli və xarici bəstəkarların əsərləri ilə yanaşı, Tofiq Bakıxanovun müəllifi olduğu “Elegiya”, “Görüş yerimiz” əsərləri də ifa olunub. Konsert məktəbin xor kollektivinin ifası ilə başa çatıb.

Görüşün sonunda bəstəkar bu məktəblə, eləcə də Naxçıvanla bağlı təəssüratlarını kollektivlə bölüşüb:

– Mən çox sevincliyəm ki, 10 ildən sonra növbəti dəfə burada, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbindəyəm. Bəli, mən burada düz 10 il əvvəl olmuşam. O zamanla indini müqayisə etdikdə, bu 10 il ərzində məktəbin xeyli inkişaf etdiyini gördüm. Çox sevindirici haldır ki, Naxçıvanda belə musiqi tədris ocaqları, ixtisaslı pedaqoji kadrlar və ən əsası da musiqiyə həvəsli gənclər var.

Sonda kollektivlə xatirə şəkli çəkdirilib.

**Fatma BABAYEVA**

## Atabəylər dövründən sonra Naxçıvan heç vaxt bugünkü qədər inkişaf etməyib

### *Dövlətçilik ənənəsi qədim olan diyar*

Təkcə Azərbaycanda deyil, bütövlükdə Şərqdə qədim və zəngin mədəniyyətə, güclü dövlətçilik ənənələrinə malik olan diyarlardan biri Naxçıvandır. Bu regionda Daş dövründən – Şərur rayonunun Tənənəm kəndi yaxınlığındakı Qazma mağarasından başlamış bəşəriyyətin bütün tarixi boyu insan məskənləri olub. Culfadakı Haçadağdan tapılan mixi yazılar, Şərurdakı Oğlanqaladan aşkar edilən qala tipli şəhər-dövlətə aid saray qalıqları Naxçıvanda dövlətçilik ənənələrinin Cənubi Azərbaycanla paralel olaraq, təxminən, eyni vaxtda əsasının qoyulmasını təsdiq edir. Naxçıvanın dövlətçilik tarixinin orta əsrlər dövrünə aid zirvəsi Atabəylər dövləti hesab olunur. Paytaxtı Naxçıvan şəhəri olan Atabəylər dövlətinin Azərbaycan tarixində ən mühüm nailiyyətlərindən biri də o oldu ki, bu dövlət xalqımıza intibah mədəniyyəti bəxş etdi. Həmin dövrdə Naxçıvan şəhəri elm və mədəniyyət, beynəlxalq ticarət mərkəzinə çevrildi. XVIII əsrdə yaranan Naxçıvan xanlığı dövlətçilik tarixində bir mərhələ olsa da, etiraf edək ki, inkişaf baxımından bu dövrü Atabəylər dövrü ilə müqayisə edə bilmərik. 1924-cü ildə yaranan Naxçıvan MSSR isə 1969-cu ildə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra özünün növbəti inkişaf mərhələsinə qədəm qoydu. Bu gün isə Konstitusiyamızda muxtar dövlət elan edilən Naxçıvan Muxtar Respublikası yuxarıda sadaladığımız tarixi inkişaf mərhələləri içərisində özünəməxsus yeri olan bir yüksəliş dövrünü yaşayır. Bu yüksəliş dövrünün də əsasını 1991-ci ildə xalqın istəyi ilə Naxçıvanda hakimiyyətə gəlmiş ümummilli lider Heydər Əliyev qoyub.

Azərbaycan Respublikası Prezidenti yanında KİVDF-nin ötən həftə Naxçıvana təşkil etdiyi səfər zamanı bu diyarın növbəti və ən yüksək inkişaf mərhələlərindən birinin nailiyyətləri ilə tanış olmaq fürsəti qazandıq. Təkcə müasir Naxçıvan hava limanı ilə tanışlıq, oradan “Təbriz” mehmanxanasına qədər olan qısa məsafə və mehmanxanada yaradılan yüksək standart bizdə artıq ilkin, eyni zamanda olduqca müsbət təəssüratın əsasını qoydu. “Mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın genişləndirilməsi” mövzusunda Naxçıvanda keçirilən regional konfransda muxtar respublikanın nailiyyətləri haqda biliklərimiz genişlənsə də, bu diyarla əyani tanışlıq inkişafın miqyasını daha dərindən dərk etməyə imkan verdi.

### Ulu öndər Heydər Əliyev: *“Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır”*

Adətən, bir yerə səfər edəndə, ilk olaraq, gözüm tarixi abidələri axtarır, onların mövcud durumu, qorunma səviyyəsi, bərpa işləri ilə maraqlanıram. Naxçıvan da dünya əhəmiyyətli abidələrlə zəngin bir diyar kimi seçilir. Ümummilli liderimiz Heydər Əliyev bu haqda belə deyirdi: ***“Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır”.*** Ona görə də proqrama Əlincə qalasına səfərin də daxil edildiyini eşidəndə çox məmnun qaldım. Biz qalaya çatanda hava qaralmaq üzrə idi, mənə elə gəldi ki, Əmir Teymurun ordusunun mühasirəsinə 14 il tab gətirmiş Əlincənin ətəyinə qədər gəlib çıxmaq, amma zirvəsinə qalxmamaq bir “günah” olar. Tezliklə bəlli oldu ki, Əlincə qalasının bərpası zamanı dağın ətəyindən başlamış zirvəsinədək işıqlandırma sistemi qurulub və gecənin zülmət qaranlığı belə, qalaya qalxmağa mane ola bilməz. Bizdən başqa da alatoranda qalanı görməyə gələn insanlarla rastlaşdıq. Mən vaxtilə Naxçıvan Dövlət Universitetində müəllim işləyərkən Əlincə qalasına bir neçə dəfə səfər etmişdim. Amma indi tamamilə yeni mənzərənin şahidi oldum. Əvvəla, burada – dağın ətəyində “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi yaradılıb. Qalanın zirvəsinə qədər uzanan pillələrin qurulması, bir neçə yerdə müdafiə divarlarının, qalanın zirvəsində isə, demək olar ki, ilkin görkəmin bərpa olunmasına ağır və üzücü əmək sərf edilmişdir. Qalanın zirvəsindən görünən, lakin xeyli aralıda yerləşən, burada qətlə yetirilmiş Nəiminin türbəsinə baxanda məndə belə bir düşüncə yarandı: ***Əlincə qalası bu vaxta qədər daha çox Əmir Teymura ciddi müqavimət göstərməsi ilə tarixdə və yaddaşlarda qalmışdısa, bundan sonrakı nəsillər həm də bu möhtəşəm bərpanı unutmayacaqlar.*** Çünki tarixdə təkcə abidələrin fiziki mövcudluğu yox, eyni zamanda onların qorunması, bərpa edilərək gələcəyə ötürülməsi vacib və həlledici şərtdir. Əlincədən sonra Araz çayı kənarındakı Gülüstan türbəsini ziyarətimiz zamanı dağılmaq üzrə olan bu abidənin tam bərpasını görəndə, muxtar respublikada tarixi abidələrə göstərilən qayğının böyüklüyünün şahidi olursan.

Bizə məlumat verildi ki, Naxçıvanda bütün tarix və mədəniyyət abidələri qeydiyyata alınaraq pasportlaşdırılıb. Son illərdə Möminə xatın türbəsi konservasiya edilib, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılıb, Yusif Küseyiroğlu və Nuh Peyğəmbərin türbələri, Naxçıvan şəhərindəki və Şərur rayonundakı imamzadələr, muxtar respublika ərazisindəki “Buzxana” abidələri, “Came” məscidi, Zaviyə mədrəsəsi, Şərq hamamı, Xan sarayı, Naxçıvanqala, Culfadakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü və digər tarixi abidələr əsaslı bərpa olunub.

Adları çəkilən bu abidələr bizi keçmişimizlə, babalarımızla, zəngin tariximizlə bağlayan tellərdir. ***Bu tellərin qopmasına imkan verməmək, zamanında onları bərpa etmək, möhkəmləndirmək tarixi missiyadır.*** Bu missiyanın yerinə yetirilməsində əməyi olan hər kəsin qarşısında baş əymək isə biz vətəndaşların borcudur. Yenilməzlik simvolu olan Əlincə qalası kimi abidələrin bərpası həm də gənclərin vətənpərvərlik ruhunun gücləndirilməsində böyük əhəmiyyət kəsb edir.

### *Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarını ən uğurlu icra edən bölgə*

Azərbaycanda 2004-cü ildən başlayaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları həyata keçirilir. Muxtar respublikanın iqtisadi-mədəni həyatı ilə yaxından tanış olduqdan sonra belə qənaətə gəldik ki, regionlarımız arasında bu proqramları ən uğurlu icra edən Naxçıvandır. Naxçıvan Biznes Mərkəzində olarkən məlumat aldıq ki, regionda 361 növdə məhsul istehsal olunur. 343 növdə məhsula olan tələbat bilavasitə yerli istehsalın hesabına ödənilir. Eyni zamanda Naxçıvanda istehsal olunan məhsullar xarici ölkələrə də ixrac edilir. Bu ölkələrin sırasına Gürcüstan, Türkiyə, İran, Belarus dövlətləri daxildir. Bu gün Naxçıvandakı şirkətlər təkcə bu dövlətlərlə kifayətlənmirlər, məhsul ixracı üçün yeni bazarlar axtarışındadırlar.

Muxtar respublika enerji təhlükəsizliyini təmin edib, istehsal olunan enerji nəinki daxili tələbatı tam ödəyir, hətta qonşu dövlətlərə enerji ixracı üçün imkanlar yaranıb. Yaxşı yadımdadır, bir zamanlar isə sutkalarla mənzillərə enerji verilmirdi.

Naxçıvanın yolları göz oxşayır, Ordubaddan tutmuş mənim böyüdüyüm Sədərəyə qədər enli, keyfiyyətli, müasir standartlara uyğun yollar çəkilib. Naxçıvan Dövlət Universitetinin kampusu, sosial obyektləri, kitabxanası, tədris korpusları, xaricdən gələnlər üçün beşulduzlu otel səviyyəsində Qonaq evi, İKT təminatı, yataqxanasında tələbələr üçün yaradılan şərait, o cümlədən sutka ərzində onların isti su ilə təminatı, bir sözlə, hər bir sahə heyranlıq doğurur.

***“Təmizlik imandandır”, – deyiblər. Naxçıvan şəhərini gəzəndə ideal bir təmizlik, səliqə-sahman insanı riqqətə gətirir.***

Əlincəyə səfərimiz zamanı yolumuz Saltaq kəndindən keçirdi. Bu kənddən Naxçıvanın simvolu olan Haçadağın möhtəşəmliyi daha aydın görünür. Saltaq kənd orta məktəbinin yanından dağı seyr edən qonaqlar həm də məktəbin binasına, payızın ortalarında onun ətrafını saran, geniş bir sahəni əhatə edən qızılgül bağçasına heyranlıqlarını gizlədə bilmədilər. Bizə məlumat verildi ki, ***muxtar respublikanın bütün kəndlərində yeni məktəblər tikilib və ya əsaslı təmir olunub.***

***Naxçıvan nəinki bölgədə, bəlkə də, bütün dünyada cinayətkarlığın ən az olduğu regionlardan birinə çevrilib.*** Naxçıvanda sahə müvəkkili işləmiş tanışlarımdan biri deyirdi ki, vaxtilə onun sahəsində bir gecədə 5 cinayət hadisəsi qeydə alınmışdı. İndi isə bütün il ərzində kriminal hadisələrin sayı minimuma endirilib.

Bir sözlə, Naxçıvanda hər bir sahədə müsbət yönümlü irəliləyişləri saymaqla qurtaran deyil. Səfərin sonunda Naxçıvanın keçdiyi tarixi yolu bir daha xəyalımda canlandıraraq belə bir qənaətə gəldim: Atabəylər dövründən keçən müddət ərzində Naxçıvan heç vaxt bugünkü qədər inkişaf etməmişdi. ***Bu inkişafda isə ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun xidmətləri danılmazdır.***

**Namiq ƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru,*
*Palitranews.az saytı,*
*“Palitra” qəzeti*

## Uğurların başlıca səbəbi sahibkarlığa göstərilən dövlət dəstəyidir

***Tarixən iqtisadiyyatı aqrar sektora bağlı olan Naxçıvan Muxtar Respublikasında quşçuluğun inkişaf etdirilməsi diqqət mərkəzində olub. Hələ keçmişdən ev təsərrüfatlarında mövcud olmuş quşçuluq inkişaf yolu keçərək kənd təsərrüfatının müstəqil sahəsi kimi formalaşıb. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə bu sahədə durğunluq yaşansa da, sonrakı illərdə sahibkarlığa göstərilən dövlət dəstəyi hesabına quşçuluq təsərrüfatlarının sayında artım müşahidə olunmaqdadır. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada quşçuluq təsərrüfatlarının fəaliyyəti genişləndirilir. Elə biz də bu maraqdan yola çıxaraq belə təsərrüfatlardan birində olduq və bu sahibkarlıq subyektinin qurulmasından bu günədək keçdiyi yol haqqında məlumatlar əldə etməyə çalışdıq. Sahibkarla söhbətimizi həm də maarifləndirici istiqamətdə qurduq ki, bu sahə ilə yeni məşğul olan və ya olmaq istəyən digərlərinə də töhfə verə bilək. Beləliklə, müsahibimiz Culfa rayonunun Gülüstan kəndindəki quşçuluq təsərrüfatının sahibi Bəhruz İsmayılovdur.***



***– İstərdik əvvəlcə özünüz haqqında oxucularımıza məlumat verəsiniz.***

– 32 yaşım var, Culfa rayonunun Gülüstan kəndində yaşayıram. 3 ildən artıqdır ki, quşçuluq təsərrüfatının sahibiyəm və hazırda təsərrüfatda 1000 başdan yuxarı hindquşu saxlayıram.

***– Necə oldu ki, quşçuluq təsərrüfatı yaratdınız?***

– Əvvəlcə onu deyim ki, bu təsərrüfatı yaradanadək biz də digər kənd sakinləri kimi ailəmizin ehtiyaclarını ödəmək üçün bir-iki mal-heyvan saxlayırdıq. Ancaq kəndin yaxınlığında kifayət qədər sahələrimiz olduğundan fikirləşdik ki, burada yaxşı bir təsərrüfat qurmaq olar. Sonradan ailə üzvlərimizdən atam, qardaşım və mən ortaq fikrə gələrək bu təsərrüfatı quşçuluq istiqamətində qurmağa qərar verdik. Dövlətimizin sahibkarlara güzəştli kreditlər ayırması bizi xeyli həvəsləndirdi. Beləliklə, 2013-cü ildə Sahibkarlığa Kömək Fondundan 40 min manat güzəştli kredit aldıq və işə başladıq.

***– Bu sahədə əvvəldən təcrübəniz var idimi? Çünki həyətyanı sahədə 5-10 toyuq-cücə saxlamaqla yüzlərlə baş hindquşuna baxmaq eyni deyil.***

– Bu sahədə təcrübəmiz yox idi. Elə bu təcrübənin olmaması işin başlanğıcında itkilərimizə səbəb oldu. Həm də deyim ki, biz ilk dəfə bu işə toyuqçuluq istiqamətində başlamışdıq. Əvvəlcə 3 mindən çox aylıq cücə aldıq. Bunların saxlanması üçün yerləri də hazırlamışdıq. Lazımi şəraiti qurmuşduq, lakin saxlamaq üçün aldığımız cücələrə ilk gündən düzgün baytarlıq xidməti göstərilmədiyindən həmin sürünün, demək olar ki, hamısı tələf oldu.

***– Başlanğıcda itkiləriniz olsa da, ruhdan düşməmisiniz və bu dəfə hindquşu saxlamağa qərar vermisiniz. Mənim üçün maraqlıdır, nəyə görə məhz hindquşu? Nəzərə alaq ki, hindquşları yumurta baxımından toyuqlar kimi o qədər də məhsuldar deyil. Məsələn, yumurta verimi yüksək olan toyuqlardan cinslərinə görə il ərzində 280-320 arasında yumurta alınırsa, hindquşlarında bu rəqəm 80-120 ədəd arası dəyişir. Eyni zamanda nəzərə alaq ki, hindquşlarının toyuqlara nisbətdə yemə tələbatı çox olduğundan sahibkara məsrəf baxımından karlı görünmür. Siz bu işin perspektivli olduğunu nədə görürdünüz? Çünki sahibkar üçün hər bir işin sonunda, təbii ki, qazanc durur.***

– Əlbəttə, quşçuluqda qazanc, əsasən, iki istiqamətdə – yumurtalıq və ətlik sahəsində gözlənilir. Hazırda bizim təsərrüfatda saxladığımız hindquşları içərisində həm ətlik, həm də yumurtalıq quşlar var. Doğrudur, əldə etdiyimiz yumurtalar toyuqlara nisbətən az sayda olsa da, arada yaranan boşluğu ətlik quşların satışı ilə tarazlaşdırmağa çalışırıq. Çünki əldə etdiyimiz yumurtaları yeri gəldikcə həm satırıq, həm də yenidən bala əldə etmək üçün istifadə edirik. Bizdə avadanlıq olmadığı üçün hər il topladığımız yumurtaları yeni balalar almaq məqsədilə muxtar respublikadakı digər quşçuluq təsərrüfatlarına veririk.

***– İndi isə hindquşlarının yemlənməsi məsələsinə toxunmaq istərdim. Sizin də bildiyiniz kimi, ev quşlarının yemlənməsində tərkibində proteini çox olan yemlərdən istifadə olunması qaçılmazdır. Bu həm yumurta verimində, həm də quşların çəkisinin artmasında mühüm şərtdir. Eyni zamanda bunu da etiraf etmək lazımdır ki, quş yemi baxımından bir müddət bizdə çətinliklər olub. Nəticədə, idxal yemə üstünlük vermişik ki, bu da, əsasən, özünü broyler yemində göstərib. Broyler tərzində bəslənən quşlarda isə təbiilik arxa plana keçir. Halbuki son bir neçə ildə dünyanın bir çox ölkələrində, elə yaxından tanıdığımız qonşu ölkələrdə də bu sistemdən nisbətən uzaqlaşma meyilləri var. Səbəb isə ondan ibarətdir ki, sağlam yaşamaq istəyiriksə, sağlam qidalara üstünlük verməliyik.***

– Doğru qeyd etdiniz, quşçuluq təsərrüfatlarında yerli yem məhsullarına üstünlük vermək bizim üçün əsas şərtlərdəndir. Əvvəllər bu sahədə müəyyən çətinliklərimiz olub. Ancaq son illərdə muxtar respublikada kənd təsərrüfatının inkişafına göstərilən dövlət dəstəyi yerli yem məhsullarının da həcminin artmasına səbəb olub. Məsələn, bu il Şərur rayonunda xeyli sahədə qarğıdalı əkilib, yaxşı da məhsul verib. Şəxsən mən bir neçə gün bundan əvvəl yem üçün qarğıdalını oradan alıb gətirdim. Yonca sahələri də artıb, taxılçılığa olan marağı isə hamımız bilirik. Bu gün buğda, arpa, qarğıdalı kimi yemlik məhsulları yerli bazardan rahatlıqla alırıq. Eyni zamanda təsərrüfatımızda kiçik taxılüyüdən dəzgah da quraşdırmışıq ki, bu da quşlar üçün qarışıq yem kəpəyinin hazırlanmasında çox köməyimizə gəlir. Artıq taxılın üyüdülməsini özümüz həyata keçiririk ki, bu da məsrəfləri azaldır. Bundan başqa, 3 hektardan yuxarı sahəmiz var ki, həmin sahənin bir hissəsində yonca əkmişik. Qış boyu quru yoncanı da dəzgahda üyüdərək yemə qarışdırırıq ki, tərkibində protein zəngin olsun. Belə olan halda bəslədiyimiz hindquşlarının əti də təbii və tamlı olacaq.

***– Bütün bu proseslərdən sonra sahibkar üçün əsas məqam – bazar gəlir. Yəni çəkdiyi zəhmətin pula çevrilmə zamanı. Bu gün istehlakçı hindquşuna necə maraq göstərir?***

– Bazardan narazı deyilik. Bildiyiniz kimi, hər həftənin sonunda Naxçıvan şəhərində, eləcə də rayon mərkəzində kənd təsərrüfatı məhsullarının satış yarmarkası təşkil olunur. Biz də bazara məhsul çıxarırıq. Rayonda fəaliyyət göstərən yeməkxanalardan da sifarişlərimiz olur. Və yaxud birbaşa təsərrüfata müraciət edib diri çəkidə quş əti alanlara da rast gəlirik. Lakin toyuq əti ilə müqayisədə hindquşunun alıcısı o qədər də çox deyil.

***– Burada haşiyə çıxaraq bir neçə faktı oxucularımızın diqqətinə çatdırmaq istərdim. Hindquşu əti insan orqanizmi üçün çox faydalıdır. Ətinin tərkibini 24 faizədək protein təşkil edir. Xolestrola qarşı effektli təsir göstərir, həzm olunması yüngüldür. Təəssüflər olsun ki, istehlakçılar hindquşu ətindən toyuq qədər istifadə etmirlər. Doğrudur, toyuq ətinə nisbətən baha olan hindquşu əti eyni zamanda dana və qoyun ətindən ucuzdur. Lakin etiraf edək ki, hindquşu əti bizdə sanki bayramdan-bayrama yada düşür. Halbuki dünyanın ən böyük hindquşu əti istehsalçısı olan ABŞ-da bu ət növünün böyük alıcı kütləsi var. ABŞ eyni zamanda hindquşu yumurtası istehsalına və istehlakına görə də digər ölkələri qabaqlayır. Bu məlumatların ardından bir daha vurğulamaq istərdik ki, hindquşu əti orqanizm üçün xeyli faydalıdır.***

***Son sualımı vermək istərdim. Təsərrüfatın gələcək fəaliyyəti ilə bağlı hansı hədəfləriniz var?***

– Sualınızın cavabına keçmədən əvvəl deyim ki, bu yaxınlarda bizim kəndimizdə yeni sosial obyektlər istifadəyə verildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri açılış mərasimindən sonra bizim təsərrüfata gəldi. Ali Məclis Sədrinin bura gəlişi, təsərrüfatla bağlı problemlərimizin olub-olmaması ilə maraqlanması, tövsiyələr verməsi bizi çox ruhlandırdı. İnanın ki, onun gəlişi biz sahibkarların arxasında necə böyük gücün dayandığını göstərdi. Buna görə də çalışacağıq ki, fəaliyyətimizi növbəti illərdə daha da genişləndirək, təsərrüfatımızda quşların baş sayını artıraq. Bir məsələni də qeyd etmək istərdim ki, bu gün muxtar respublikamızda sahibkarlığın inkişafına hərtərəfli dövlət dəstəyi göstərilir. Müsbət nəticəni isə o zaman əldə etmək mümkündür ki, göstərilən dəstəyi, verilən kreditləri lazımınca qiymətləndirə biləsən. Biz 3 il bundan əvvəl dövlətdən aldığımız güzəştli krediti aidiyyəti üzrə dəyərləndirdik. Bu dəstəyi təsərrüfat üçün sahənin əkilməsinə, binanın tikintisinə, yeni sürünün alınmasına və sair işlərə sərf etdik. Nəticədə, zəhmətimizin qazancını da gördük, kredit borclarımızı da ödədik. Onu da vurğulamağı lazım bilirəm ki, istənilən sahədə uğur qazanmaq üçün o işi sevməlisən. Əgər işinlə sevərək məşğul olmursansa, ona bağlanmırsansa, o sahədə müsbət nəticə də əldə etməyəcəksən. Hədəflərimizlə bağlı onu demək istəyirəm ki, hazırda qeyd etdiyim kimi, təsərrüfatımızda min başdan yuxarı hindquşu saxlayırıq. Ancaq çalışacağıq ki, gələcəkdə bu sayı beş minə, on minədək artıraq. Təbii ki, bu işin bir qismi bizdən, bir qismi də bazar tələbatından asılıdır. İnanırıq ki, yaradılmış şərait bunu reallaşdırmağımıza imkan verəcək. Çalışacağıq ki, bizə göstərilən etimadı, qayğını layiqincə doğruldaq, muxtar respublika sakinlərinin yerli məhsullara olan ehtiyacının ödənilməsinə öz töhfəmizi verək.

***– Sağ olun, işlərinizdə uğurlar.***

**Səbuhi HƏSƏNOV**

*Əvvəllər ucqar dağ və sərhəd kəndlərinə ərzaq məhsulları ticarətçi tərəfindən alınıb sərnişin avtobuslarında aparılır, heç bir şəraiti olmayan binalarda satılırdısa, artıq son illər aparılan kompleks quruculuq tədbirləri nəticəsində bu problem də aradan qaldırılıb. Ayrı-ayrı yaşayış məntəqələrində müasir tələblərə cavab verən, memarlıq üslubu ilə gözoxşayan sosial binalar, o cümlədən xidmət mərkəzləri tikilib istifadəyə verilib. Özü də həmin xidmət mərkəzlərində, bufetlərdə alıcılara təqdim olunan məhsullar da, necə deyərlər, gətirilib qapının ağzında təhvil verilir. Gətirilən ərzaq məhsullarının hamısı Naxçıvan məhsullarıdır ki, onların da münasib qiymətinə, keyfiyyətinə, dad-tamına söz ola bilməz.*

## Keyfiyyətli məhsul, nümunəvi xidmət



Şənbə günü idi. Culfa rayonunun Ləkətağ kəndinə gedirdik. Son illərin quruculuq ərməğanlarından olan Çeşməbasar-Boyəhməd avtomobil yolu ilə şütüyən, üstündə ərzaq məhsullarının rəsmi çəkilmiş maşını göstərən nəvəm:

– Baba, bu maşın necə gözəl bəzədilib? Bəlkə, biz də maşınımızın üzərinə o rəsmlərdən çəkdirək, – deyib üzümə baxdı.

– Yox, bu maşınlar adi maşın deyil. Ayrı-ayrı şirkətlərə məxsus soyuducu kamera ilə təmin edilmiş bu maşınlar ucqar dağ və sərhəd kəndlərində yerləşən xidmət mərkəzlərinə, sənin kimi balacaların təhsil aldığı məktəblərdə yerləşən bufetlərə ərzaq məhsulları daşıyırlar.

– Bu məhsulları niyə soyuducuya qoyublar?

– Ona görə ki, bəzi ərzaq məhsulları müəyyən olunmuş temperaturda daşınmasa, sənin kimi balaca uşaqlar yeyib xəstələnər və xəstəxanaya düşərlər.

– Hə... Bəs bu maşınların üstündə niyə "Bərəkət" yazılıb?

– Bu maşınlar hansı şirkətin məhsullarını daşıyırsa, elə həmin şirkətin də adını yazıb, məhsullarının rəsmini çəkib reklam edirlər.

Beləcə, söhbətləşə-söhbətləşə çatdıq kəndə. Bizdən öndə dayanan maşını görən uşaqlar:

– Ay Akif əmi, "Bərəkət" gəlib, – deyə qışqıra-qışqıra qaçdılar xidmət mərkəzinə.

Bir azdan Akif də balaca dostları ilə birlikdə gəldi. Sifariş verdiyi məhsulları təhvil aldı.

– Necədir, xidmətdən razısınızmı? – deyə soruşdum.

– Əlbəttə, bundan yaxşı nə ola bilər. Hər nə lazımdırsa, elə gətirib qapıda təhvil verirlər. Özü də şəhərdəki qiymətə. Əvvəllər kimsə qiymət fərqi ilə əlaqədar bazarlığını şəhərdən edirdisə, artıq buna ehtiyac yoxdur. Satışa çıxarılan məhsullar elə şəhərdəki qiymətə satılır. Daşınma xərci isə istehsalçı şirkət tərəfindən qarşılanır. Bu həm istehsalçı, həm istehlakçı, həm də ticarətçi üçün olduqca əlverişlidir. Çünki istehsalçı məhsulun satışına, istehlakçı keyfiyyətli və münasib qiymətə məhsul almağa, ticarətçi isə əlavə daşınma xərci çəkməməyə maraqlıdır. Elə buradaca söhbətləşdiyimiz hər kəs xidmətdən razılığını bildirdi, yaradılan şəraitə görə minnətdarlıq etdi.

Biz də nümunəvi xidməti ilə seçilən "Gəmiqaya Bərəkət Bazarlama" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti barədə oxucularımıza ətraflı məlumat vermək üçün üz tutduq həmin müəssisəyə. Cəmiyyətin direktoru Ramal Salmanovun dediklərindən:

– "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının müxtəlif istehsal sahələrində istehsal edilən, "Badamlı", "Bərəkət", "Mirvari" və "Qızıl damla" tanıtım nişanları ilə satışa çıxarılan kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları, "Badamlı" təbii mineral süfrə suyu, meyvə nektarları, halva, un, müxtəlif çeşiddə çörək, makaron, ət və süd, eləcə də şirniyyat kimi sənaye məhsulları keyfiyyət göstəriciləri ilə seçilir, alıcılar tərəfindən rəğbətlə qarşılanır. Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək işin bir vacib sahəsidirsə, istehsal edilən məhsulların tələb olunan şəraitdə saxlanılması və ayrı-ayrı xidmət obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması, istehlakçılara təqdim olunması isə işin bir-birini tamamlayan digər mühüm əhəmiyyətli sahəsidir. Bu mühüm əhəmiyyətli sahə diqqət mərkəzində saxlanılıb, 2010-cu ilin mart ayında "Gəmiqaya Bərəkət Bazarlama" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlayıb.

Marketinq və satış şöbələrinin fəaliyyət göstərdiyi müəssisəyə xaricdə təhsil almış və təcrübə keçmiş gənc mütəxəssislər cəlb olunublar. Həmin mütəxəssislər daxili bazarın tələbatını öyrənir, yerli məhsulların tanıdılması məqsədilə təbliğat işləri aparırlar. Qida məhsullarının satış qiymətlərində endirim edilir, daha çox yerli məhsul alan müştərilərə hədiyyələr verilir. Turizm imkanları geniş olan muxtar respublikamıza gələn qonaqların sayının ilbəil artdığını nəzərə alaraq gediş-gəliş çox olan ərazilərdə yerli məhsullardan ibarət səyyari sərgilər təşkil olunur.

"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının qida qrupuna daxil olan sənaye müəssisələrində istehsal edilən yerli məhsulların keyfiyyətlə saxlanılması və ticarət obyektlərinə çatdırılmasına da əlverişli şərait yaradılıb. Naxçıvan şəhərində qida məhsullarını mənfi 15 dərəcəyədək saxlamaq imkanı olan soyuducu anbar istifadəyə verilib, ayrı-ayrı rayonlarda satış bazaları yaradılıb. Müəssisənin Naxçıvan şəhərində fəaliyyət göstərən mərkəzi bazasına daxil olan qida məhsulları yük avtomobilləri ilə rayon mərkəzlərində yerləşən satış bazalarına daşınıb həftəlik ehtiyat yaradılır. "Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi müxtəlif çeşiddə çörəklər isə gündəlik olaraq Naxçıvan şəhərindən, ayrı-ayrı rayon mərkəzlərindən başlayaraq ucqar dağ və sərhəd kəndlərinədək bütün yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Qida məhsullarının müəyyən olunmuş şəraitdə saxlanması üçün həmin ticarət obyektləri soyuducularla təmin edilib, qida məhsullarının soyuducularda saxlanmasına və düzülüşünə nəzarət məqsədilə xüsusi dizaynerlər qrupu yaradılıb.

Müəssisədə fəaliyyət göstərən satış şöbəsində də xidmət günün tələbləri səviyyəsində qurulub, muxtar respublikamızın şəhər və rayonları yerləşdiyi əraziyə uyğun olaraq 3 qrup üzrə komplektləşdirilib. Naxçıvan-Babək-Şahbuz, Kəngərli-Şərur-Sədərək, Ordubad-Culfa bölgələri üzrə ticarət nümayəndələri təyin olunub ki, onlar da həmin rayonlar üzrə tələbatı öyrənib müəssisəyə sifarişlər verirlər. Qida məhsulları rayon bazaları vasitəsilə bütün ticarət obyektlərinə vaxtında çatdırılır.

**Kərəm HƏSƏNOV**

*Yurdumuzu tanıyaq və tanıdaq*

# Naxçıvan-Əlincə turizm marşrutu



(Əvvəli qəzetimizin 12 sentyabr tarixli sayında)

***Əlincə qalası və bütövlükdə, qalanın ətrafı, Əlincəçay vadisi müxtəlif tarixi yer, hadisə və şəxsiyyətlərin həyatı ilə bağlı çox maraqlı faktlarla zəngindir. Turizm cazibədarlığı baxımından bunlara bir ehtiyat kimi yanaşılması və hər birinin ayrıca bir ekskursiya proqramı şəklində tanıdılması mümkündür.***



Əlincəqala ilə tanışlıqdan sonra turistlərin təəssüratlarını daha da dərinləşdirəcək mühüm obyektlərdən biri Əlincəqalanın şərq tərəfində yerləşən, hazırda Xanəgah kəndinin əhalisi tərəfindən məscid kimi istifadə olunan türbə mühüm əhəmiyyət kəsb edir. Belə ki, qala və onun ətrafı haqqında mühüm yazılı mənbə kimi bu kitabə turistlərdə böyük maraq doğuracaq. Bu kitabədə əks olunan faktlar heyrət doğurucudur. Kitabə üzərində ərəb dilindəki yazılara əsasən, bu türbə XV əsrdə "Həqiqi" təxəllüsü ilə şeirlər yazmış Qaraqoyunlu hökmdarı Bahadır xan Cahanşahın dövründə Əlincəqalanın yadelli işğalçılardan müdafiəçilərinin xatirəsinə tikilib.

Naxçıvan Şərqin mühüm düşüncə mərkəzlərindən biridir. Qədim dövrlərdən burada yaşamış insanların haqq-ədalət mübarizəsi və dini-fəlsəfi cərəyanların təsiri ilə dünyaya baxışları əsasında formalaşmış Naxçıvan məktəbi keçmişdə olduğu kimi, bu gün də bəşəriyyətə və Yaradana sevgi, insana tolerantlıq hissləri ilə bütün dünyaya nümunə olmaqdadır. Bu baxımdan Əlincəqalanın ətrafındakı yaşayış məntəqələrində, xüsusən Xanəgah və Saltaq kəndləri ərazisində mövcud olmuş sufizmin izlərini özündə yaşadan kitabələr, habelə Xanəgah kəndindən 1 kilometr şərqdə yerləşən kompleksdəki yazılı mənbələr mühüm epiqrafik abidələr kimi turistlərdə də böyük maraq doğurur.

Əlincəçay vadisi orta əsrlərdə mühüm ticarət yollarının keçdiyi məkan olub. Əlincəyə gələn turistlər qədim tarixi mənbələrlə üzbəüz tanış olduqca Əlincəqala və ətrafındakı zənginliklərin mədəniyyətlərarası dialoq üçün nə qədər zəngin əhəmiyyət daşıdığına şahid olacaqlar. Şübhəsiz, burada minillik yaşı olan insan izləri, bizə miras qalmış maddi-mədəniyyət nümunələri, daş kitabələr, hidrotexniki qurğular və məişət əşyaları bugünkü nailiyyətlərimizin tarixi kökü və qədim əcdadı kimi hər birimiz üçün qiymətlidir. Bu baxımdan Əlincə xanəgahı ilə tanış olan turistlər görəcəklər ki, Xanəgah kompleksindəki türbə-məscid o dövrlərdə hansısa bir hökmdarın şöhrəti üçün tikilmiş sadə bir abidə deyildir. Qədim Şərqin təfəkkür mərkəzi kimi Naxçıvanda yaşamış fəzilət sahibi insanlara verilən qiymət hələ o vaxtlar cəmiyyətdəki sosial münasibətlərin əsas vektoru olub.

Dünya əhəmiyyətli bu abidənin də mühüm tarixi şəxsiyyətlərin adı ilə bağlı olması təsadüfi deyildir. O dövrə görə dərin dini-fəlsəfi fikirlərə əsaslanan hürufilik təliminin banisi, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin müəllimi olmuş Fəzlullah Nəiminin burada dəfn olunması, sonradan buranın onun ardıcılları tərəfindən bir ziyarətgaha çevrilməsi turistlər üçün olduqca maraqlı faktlardır. Yaxud xanəgahdakı təqdimat zamanı bu gün hər saat onlarla, yüzlərlə insanın öldürüldüyü modern dünyadan fərqli olaraq, orta əsrlərdə bu torpaqlarda meydana gəlmiş hürufiliyə insanın Yaradana məxsus ən ali, ən kamil bir məxluq olduğunu və dolayısı ilə insan qanı tökən hər bir kəsin də Allaha qarşı günah işlətdiyini təbliğ edən bir təlim kimi yanaşılması buraya gəlmiş turistlər üçün çox düşündürücü olacaq.

Azərbaycan hələ qədim dövrlərdən dünyaya Günəş kimi işıq saçan elm adamları ilə tanınıb. Elmə və elm adamlarına olan dərin hörmət isə hələ orta əsrlərdə xalqımızın iqtisadi-mədəni həyatında mühüm münasibətlərdən biri olub. Xanəgahdakı abidələrlə, xüsusilə burada dəfn olunmuş Şeyx Hacı Lələ Məliyin qəbirüstü xatirə abidəsi ilə tanışlıq zamanı bu xüsusa diqqətləri cəlb olunan turistlər biləcəklər ki, hələ XV əsrdə Avropa cəmiyyətində qadının ən sadə insan hüquqları olmadığı bir vaxtda, həmin dövrdə burada yaşamış qadınlar cəmiyyətin tamhüquqlu üzvü olublar. Yuxarıda adıçəkilən sufi şeyxinin xanımı olmuş və ərinin xatirəsinə möhtəşəm türbə-məscid inşa etdirmiş Həvva Bədr Bikə xanım haqqında əcnəbi turistlərə danışdıqca, şübhəsiz, onların əksəriyyəti dünyanı yenidən kəşf etmiş kimi dərin təəssürat alacaqlar.

Əlincəqala eyni zamanda xalqımızın dövlətçilik tarixində mühüm yer tutan, onun qəhrəmanlıq mübarizəsini, bütün çətinliklərə qarşı elbirliyi ilə necə sinə gərməyin və keçmişə sahib çıxmağın canlı örnəyini göstərən dünya əhəmiyyətli bir abidədir. Bu baxımdan Əlincəqalanın bərpası olduqca əhəmiyyətlidir. XVI əsrin əvvəllərində yaranıb və 235 il davam etmiş Səfəvilər dövlətinin ilk illərində də Əlincəqalada bərpa və abadlıq işləri aparılmış, bir sıra memarlıq abidələri – bürc, darvaza, müdafiə istehkamları inşa edilmişdir. Əlincəqalanın cənub tərəfindəki Saltaq kənd məscidində bu mühüm tarixi faktı sübut edən və xalqımızın tarixində mühüm yer tutan I Şah İsmayılın da adının çəkildiyi kitabə ilə tanışlıq bir daha sübut edir ki, Naxçıvan ərazisi tarix, mədəniyyət və tanışlıq-dərketmə məqsədilə səyahət edən hər bir turist üçün nə qədər cazibədar və əlverişli bir məkandır.

Turizm dünyaya səyahət edib dərin rekreasiya və tanışlıq təəssüratı almaq motivləri üzərində yaranıb inkişaf edən bir sahədir. Naxçıvan da bu aləmin bir hissəsi, ölkəmizi bütün dünyaya tanıdan əsrarəngiz tarixi hadisələrə, zəngin təbii-müalicəvi resurslara və müasir iqtisadi-mədəni inkişaf səviyyəsinə malik bir diyardır. Burada təcrübəli, tələbkar və turizm ehtiyatlarının təsir gücündən yaxşı başı çıxan turistlərlə bölüşüləcək çox zənginliklər vardır. Bunların bir qisminin üzə çıxarılması, onların potensialının qiymətləndirilməsi məqsədilə Naxçıvandan Əlincəyə qədər yola çıxıb gördüklərimizə, eşitdiklərimizə bir daha şahid olmaq istədik. Göründüyü kimi, burada hər şey əvvəlki kimi sadə, gözəl, orijinal və toxunulmazdır. Muxtar respublikamıza gələn və bundan sonra gələcək olan turistləri daha da təəccübləndirmək, onlarda vətənimiz haqqında daha dərin bir təəssürat yarada bilmək üçün yazdığımız Naxçıvan-Əlincə turizm marşrutu da bu fikirlər üzərində quruldu. Şübhəsiz, bu fikirlərimizə alternativ bir kompozisiya da mümkündür. Turizmin gücü də bundadır. Biz isə öz tərəfimizdən bu yazının ərsəyə gəlməsində dəyərli elmi fikirlərinə istinad etdiyimiz AMEA Naxçıvan Bölməsinin əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk.

✍ **Əli CABBAROV**

***Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında ali təhsil müəssisəsinin Kitabxanaçılıq kafedrasının müdiri, dosent Nəzakət İsmayılovanın "Naxçıvan ədəbi mühiti: uşaq ədəbiyyatının inkişaf istiqamətləri və problemləri" kitabının təqdimat mərasimi olub.***

# Yeni kitabın təqdimatı olub




Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov yeni nəşrin Naxçıvan ədəbi mühitinin Azərbaycan uşaq ədəbiyyatının təşəkkülündəki rolunu ortaya çıxarmaq, gənc ədəbi nəsli uşaqlarla bağlı yaradıcılığa istiqamətləndirmək kimi dəyərlərindən danışıb, müəllifə yaradıcılıq uğurları arzulayıb.

Tarix-filologiya fakültəsinin dekanı, dosent İman Cəfərli "Uşaq ədəbiyyatının tədqiqində yeni mərhələ" adlı məruzəsində məhsuldar elmi fəaliyyətlə məşğul olan Nəzakət İsmayılovanın 4 kitab, 100-dən artıq elmi məqalə müəllifi olduğunu, bir sıra beynəlxalq konfrans və simpoziumlarda iştirak etdiyini xatırladıb. Qeyd olunub ki, kitab Naxçıvan ədəbi mühitinin uşaq ədəbiyyatı sahəsində qazandığı nailiyyətləri, iyirmiyə yaxın şair və yazıçının yaradıcılığını öyrəndiyi üçün Naxçıvanşünaslığa layiqli töhfə hesab oluna bilər. Kitab uşaq poeziyasını müxtəlif tarixi mərhələlər və konkret müəlliflər üzrə təhlil etmək baxımından gələcək elmi tədqiqatlar üçün istinad mənbəyi rolunu oynayacaq.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Seyfəddin Eyvazov "Klassik və müasir uşaq ədəbiyyatı yaradıcılarının uğurlu tədqiqi" mövzusunda çıxış edib.

Sonda kitabın müəllifi, dosent Nəzakət İsmayılova tədbirin təşkilatçılarına minnətdarlığını bildirib, gələcək yaradıcılıq planlarından danışıb.

**Mehriban SULTAN**

# Uşaqlara qənaət mədəniyyətini necə aşılaya bilərik?

***Qənaət. Bu sözü tez-tez eşidirik. Xüsusilə də özümüzdən böyük insanlarla, ən çox da nənə və babalarımızla söhbət əsnasında. Məsələn, nənəmgildə oturmadığımız otağın işığını lazımsız yerə yanılı qoyanda birdən nənəmin səsini eşidirəm:***

– A bala, işığı niyə havayı yerə yandırırsan? Söndür.

Bəli, bu gün üçün yaşlı insanlar qənaətə daha həssaslıqla yanaşır, israfçılığa yol vermirlər. Çünki onlar ölkəmizin sosial-iqtisadi cəhətdən böhran keçirdiyi illərdə yaşayıb yoxluğun, çətinliyin, hətta aclığın belə, nə demək olduğunu çox yaxşı bilirlər. Yadımdadır, uşaq ikən süfrədə həmişə isti çörəyə əl atar, köhnə olmasa da, dünəndən qaldığı üçün heç birimiz yemək istəməzdik. Nənəm o bir parça çörəyi əlinə götürüb: "Biz bu bir parça çörək üçün saatlarla növbəyə dururduq", – deyərdi.

Gənc nəsil isə ölkənin firavan dövründə yaşadığından, şükürlər olsun ki, bolluq içində böyüyür. Düşünəndə ki, normal maddi imkanı olan hər bir ailə uşağına istədiyi hər şeyin ən yaxşısından olmasa da, qane edəcək səviyyədə olanını ala bilirsə, təbiidir ki, həmin uşaq gələcəkdə istədiyi bir şey üçün "yox" sözünü qəbul etməyəcək. Söhbət də elə bundan gedir: uşaqlarda qənaət mədəniyyətinin formalaşmamasından, bəzilərinin isə həddən ziyadə israfçı olmasından. Günümüzün ən aktual məsələlərindən biri olan qənaət mədəniyyəti niyə bu gün üçün bir çox uşaqda formalaşmayıb? Yoxsa ailədə, ya da cəmiyyətdə bunun üçün lazımi tədbirlər görülmür?

Bu mövzuda psixoloq fikirlərini vacib saydıq və "Naxçıvan" Universitetinin müəllimi Şahnaz Məmmədovaya müraciət etdik.

Bununla bağlı o dedi:

– Bəzi valideynlər var ki, imkanı çatmasa belə, ətrafın qınağına görə uşağını imkanlı göstərir. Şöhrətpərəst valideynlər də var ki, uşağının gələcəkdə bədxərc olmasının səbəbkarı məhz elə onlar hesab olunurlar. Çünki uşaq xaşyı ilə pisi ayırd edə bilmir. Kiçik yaşlarda nə geyindirsələr, heç narazılıq etmədən geyinir. Uşaq özünü dərk edəndən bəri ailədə hər şeyin ən yaxşısı ilə təmin olunduğundan böyüdükdən sonra da bu istəyin ardı-arası kəsilmir, o, yenə də hər şeyin ən yaxşısını istəyir. O cür şəraitə öyrəşdikdən sonra isə onları tərbiyə etmək olduqca çətindir. Onları belə bir şəraitə alışdıran isə özgəsi deyil, elə öz valideynləridir.

Öz qazancları olmadan maksimumu istəyən 12-18 yaşlı uşaqlar pulun necə qazanıldığından xəbərsiz olduqları üçün bədxərclik edirlər. Ətrafla uşaqları qınamaq isə valideynlərin bilərəkdən üz tutduqları ən mənfi cəhətdir. Məsələn, uşaqlara "sən bunu etmə, sən bunu danışma, ətrafdakılar pis baxar", – deyə şərt kəsdiyimiz zaman sonrakı illərdə uşaqlar bizə deyəcək ki, "sən mənə bunu al, digərini, köhnəni geyinsəm ətraf mənə pis baxar". Qısaca, onlar valideyni öz silahı ilə "vuracaqlar".

Bütün bunlar xırda detallar hesab edilsə belə, hər şey bax bu cür xırdalıqlardan başlayır.

Müsahibim onu da vurğulayır ki, hər birimiz cəmiyyətin nümayəndəsiyik. Valideyn, müəllim maddiyyatı kənara qoyub mənəviyyatı irəli çəkməli və özləri də uşaqlara belə nümunə olmalıdırlar. Bununla yanaşı, onlar aforizmlərlə, dahilərin dedikləri məsələlərlə uşaqlara başa salmalıdırlar ki, qənaətcillik nədir?

Şahnaz Məmmədovanın sözlərinə görə, iqtisadçılar da uşaqlarda qənaət mədəniyyətinin formalaşmasının ailə büdcəsinə müsbət təsiri olduğunu bildirirlər. İqtisadi qənaət maddi imkandan asılı olmayaraq, hər bir ailə üçün vacib şərtdir. İsraf fərdə və cəmiyyətə maddi-mənəvi sıxıntılar gətirməklə yanaşı, iqtisadi inkişafı da ləngidir.

Sosial problemlərin həlli üçün planlı ailə iqtisadiyyatının qurulması mühüm amildir. Bunun üçün ailənin hər bir üzvünün xərci müəyyən bir çərçivə daxilində olmalı, onlar həmin çərçivəyə uyğun pul xərcləri̇nə diqqət etməlidirlər. Müasir dövrdə kişi və qadının birgə ailə büdcəsinə ciddi yanaşması onların övladlarının da gələcək dövr üçün mükəmməl ailə idarəedəcəyinə zəmin yaradır.

Uşaqlarımızın qənaət tərbiyəsinə körpəlikdən başlamalıyıq. Başa salmalıyıq ki, israfçılıq dini baxımdan da günah sayılır. Uşaq yaşlarından ən böyük israfın zamanı boşa keçirmək olduğunu onlara aşılamalıyıq. Onlara öyrətməliyik ki, vaxtın səmərəli keçirilməsi ilə bütün istədiklərimizə nail ola bilərik. Beləliklə, cəmiyyətə faydalı, savadlı, intellektli gənclər yetişdirəcəyik. Hər cür potensiala malik Azərbaycan gəncinə də elə bu yaraşar. Sağlam və firavan bir gələcək üçün gəlin hamımız əlimizdən gələni edək. Atalarımızın dediyi kimi: "Güc birlikdədir!"

✍ **Fatma BABAYEVA**

***İtmişdir***

Abbasov Vəli Fəxrəddin oğlunun adına "Naxçıvan" Universiteti tərəfindən 2009-cu ildə verilmiş diplomun iç vərəqəsi itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Teymur Ramiz oğlunun adına verilmiş hərbi bilet və xidməti xasiyyətnamə itdiyindən etibarsız sayılır.

* * *

Mehdizadə Ceyhun Namiq oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 804